Xalqların siyasi həyatı yaratdığı dövlətlərin vaxtından, ərazisindən, rejimindən, idarəçilik tipindən asılı olmayaraq, yalnız varislik prinsipi ilə vahid siyasi tarixə çevrilir. Bu baxımdan, tarixdə mövcud olmuş dövlətlərimizlə indiki Azərbaycan dövləti arasındakı varislik əlaqələrini aşkarlamaq siyasi tariximizin bir tam kimi öyrənilməsi uçun çox mühüm əhəmiyyət kəsb edir.



# Dövlətçilikdə varislik - xaricdə təhsil

## Təhsil dövlət üçün - vətənpərvər, millətsevər, dövlətə, xalqa sədaqətli olan, bu yolda hər cur fədakarlığa hazır vətəndaş, kadr və mütəxəssis hazırlayan təhlükəsizlik sistemidir...



Sərdar CƏLALOĞLU

Dövlətləri xarakterizə edən əsas faktor dövlətin təhlükəsizlik orqanlarıdır. Politologiya elmində dövlətin beş təhlükəsizlik orqanı müəyyən edilir ki, bunlardan biri və məncə, ən əhəmiyyətlisi təhsildir. Ən ümumi şəkildə təhsil əvvəlki nəsillərin elmi-mədəni, o cümlədən siyasi təcrübəsinin yeni nəslə ötürülmə vasitəsi kimi təyin oluna bilər. Məhz təcrübənin bu cur ötürülməsi paralel olaraq nəsillərarası mənəvi varisliyin, həm də cəmiyyətin və şəxsiyyətin fasiləsiz yeniləşməsinə xidmət edir. Varisliklə yeniləşmə vəhdətdə xalqa qarşı xarici təsirlərin və tərəqqiyə əngəl olan hər cür təbii və sosial müqavimətin dəf edilməsini təmin edir. Xalq müxtəlif nəsillərin məcmusundan təşkil olunduğundan, təhsil bu nəsilləri bir-birinə bağlayan, onları vəhdətə gətirən sosial faktor kimi çıxış edir.

Təhsilin digər bir funksiyası insanı cəmiyyətə bağlamaqdan, fərddən şəxsiyyətə çevirməkdən ibarətdir. Cəmiyyət fasiləsiz funksiyalaşdığından, fərdi mövcudluq keçici və məhdud olduğundan, təhsil hər bir fərdin istedad və qabiliyyətlərinin cəmiyyətin uzunömürlülüyünə xidmət etməsini təşkil edir. İnsanlar ölür, amma təhsil onların əldə etdiyi nailiyyətləri yaşadaraq, yeni nəsillərə ötürür. Cəmiyyət təbii faktor kimi təkrarlanan (nəsillər kimi) və sosial faktor kimi təkrarlanmayan (tərəqqi kimi) dəyişilmələrin məcmusu olaraq təzahür etdiyindən, təhsil cəmiyyətin təkrarlanmayan dəyişilmələrini - tərəqqini təmin edir. Təbii dəyişilmələr kortəbii, sosial dəyişilmələr nizamlılıq tələb etdiyindən, təhsil bu dəyişilmələri nizama salan prosesdən ibarətdir.

Təhsil insanı mədəni və elmi şəkildə əhliləşdirən vasitədir. Cəmiyyətlərin mədəni səviyyəsi ilə onların təhsil sistemi arasındakı əlaqə də məhz bununla bağlıdır. Məlumdur ki, xalqlar yalnız oz tarixi təcrübələrinə yox, həm də başqa xalqların - fərqli tarixlərdə və coğrafiyalarda yaşamış xalqların, təcrübəsindən bəhrələnməklə insanlıq tərəqqi edir. Təhsilin bir vəzifəsi də ümum insanlıq təcrübəsini insanlara oyrətməkdən ibarətdir. Amerikan filosofu, proqmatizmin nəhəng nümayəndələrindən olan Conn Dyui "Demokratiya və təhsil" adlı kitabında yazır: "Cəmiyyətin mövcudluğu naminə öyrətmək və öyrənmək o qədər aydındır ki, adama elə gələ bilər, biz açıq qapını sındırmaq istyirik... Məktəbdə öyrətmə - cəmiyyətin böyüməkdə olan nümayəndələrinin görüşlərinin formalaşmasına az tohfə verməyən təcrübənin ötürülməsinin vacib üsuludur və bu, yalnız üsullardan biri deyil, həm də kifayət qədər başqaları ilə səthi müqayisədə belədir. Daha fundamental və dərin təhsil proseslərinin vacibliyini anlayaraq, biz məktəb təhsilinin ondakı yerini aydın görə bilərik".

Nəsil problemi hər bir cəmiyyətə xasdır və bu problemin duzgun həlli cəmiyyətin monolitliyini təmin edir. Təcrübə göstərir ki, ilbəil uşaqların imkanları ilə böyüklərin təlabləri arasındakı fərq böyük sürətlə inkişaf edir. Tarixi inkişaf prosesində uşaqların intellektual inkişafının sürəti ilə böyüklərin mövcud olduğu intellektual potensial arasındakı fərq durmadan azalır. Böyüklərin kiçiklərin həyatında proqressiv rolu məktəblərdə təhsilin təşkili ilə bağlıdır. Dyuiyə görə, sosial həyatda təhsilin rolu fizioloji mövcudluq uçun qidanın və nəsilvermənin rolu ilə analogiya təşkil edir.

Təhsil prosesi özünəməxsus sosial ünsiyyət formasıdır, hansı ki, fərdin cəmiyyət həyatındakı sonrakı soasial münasibətləri üçün bazis təşkil edir. Ona görə, məktəb cəmiyyətin məscid və ailə ilə birlikdə üçüncü ən mühüm tərbiyyə vasitəsi kimi çıxış edir. Bütün bunlar qısa da olsa təhsilin fərd, cəmiyyət və dövlət münasibətlərində müstəsna rol oynadığını sübut edir.

Təhsil dövlət üçün - vətənpərvər, millətsevər, dövlətə, xalqa sədaqətli olan, bu yolda hər cur fədakarlığa hazır vətəndaş, kadr və mütəxəssis hazırlayan təhlükəsizlik sistemidir. Məhz buna görədir ki, təhsilə diqqət dövlət təşəkkül tapan andan prioritet təşkil edib. Böyük İsgəndərin atası çar Flip deyib ki: "Mən fəxr etmirəm ki, İsgəndərin atasıyam. Və onunla da fəxr etmirəm ki, İsgəndər məhz mənim oğlumdur. Onunla fəxr edirəm ki, Aristotel onun müəllimidir". Bu bir cümlə təhsilin dövlət həyatında nə qədər önəm daşıdığını gostərir. Əmir Teymur da öləndə "məni müəllimim Seyid Bərakənin ayaqları altında dəfn edin", - deyə vəsiyyət etmişdi.

Təhsil yalnız yüksək ixtisaslı kadrlar hazırlamır, həm də yüksək insani keyfiyyətlərə malik şəxsiyyət formalaşdırır. Bəs insanlarda yüksək kefiyyətlər necə meydana çıxır? Məlum məsələdir ki, hər bir insanda bu və ya başqa istedad və qabiliyyət vardır. Cəmiyyətin problemi həmin istedad və qabiliyyətləri üzə çıxarmaq, onların azad inkişafına zəmin yaratmaqdır. Bu mənada təhsil insanın daxili imkan və potensiallarının qapısını açan, onun bütün potensialını məqsədə doğru səfərbər edən proses kimi meydana çıxır.

Azərbaycan dövlətçilik tarixində təhsilə böyük qiymət verilməsinin sonsuz nümunələri vardır. Tarix boyu hakimiyyətə şahzadələrin hazırlanması zamanı onların təhsilinə xüsusi diqqət edilmişdi. Təhsil yeganə sahədir ki, burada insanın sosial statusu müəyyənedici deyil. Əksinə, təhsil cəmiyyətdə sosial statusun müəyyənedici faktoru kimi çıxış edir. Bu baxımdan, müxtəlif sosial təbəqələr təhsilə həmişə önəm vermişlər. Başqa xalqların tarixi təcrübəsini başqa sosial mühitdə öyrənmək zərurəti xarici təhsil məsələsini aktuallaşdırmışdır. Xarici təhsili zəruri edən faktorlara konkret ixtisas təhsilinin ölkə daxilində verilməməsi, başqa xalqların sosial həyatında iştirak və mənimsəmək, ünsiyyət yolu ilə xalqalar arasında xalq diplomatiyasını inkişaf etdirmək, ən vacibi başqa xalqların əldə etdiyi sosial islahatların ölkədə aparılmasına kadr və zəmin hazırlamaqdan ibarətdir.

Odur ki, yalnız ölkədaxili təhsil təşkil etməklə ciddi nailiyyətlər əldə etmək olmaz. Məlumdur ki, elm və mədəniyyət tarixi dövrlər, xalqalar və coğrafiyalar arasında qeyri-müəyyən inkişaf edir. Buna görə, ən inkişaf etmiş ölkələr belə, xaricdə təhsilə böyük diqqət ayırır. Xüsusilə, ən qabaqcıl təhsil müəssisələrində təhsil almaq zərurəti dövlətdə xarici təhsilə böyük diqqət ayırmağı tələb edir.

Çağdaş dövrdə öz ölkəsinin siyasi həyatında yüksək mövqe tutan, eləcə də elmi-mədəni, sosial-iqtisadi sahələrdə avanqard olan şəxslərin böyük əksəriyyətinin xaricdə təhsil alması bununla bağlıdır.

### Dövlət dəstəyi ilə xaricdə oxumağın nə kimi əhəmiyyəti var?

Məlumdur ki, dövlət dəstəyi xaricdə təhsil almağa haqq qazanmış imkansız tələbələr üçün həm də çox ciddi stimuldur. Con Dyui stimul haqqında yazır: "Mahiyyətcə, istənilən stimul fəaliyyəti nəinki oyandırır və ya təhrik edir, hətta onu məhz konkret, müəyyən məqsədə istiqamətləndirir. Əgər həmin məqsəd dövlətə və xalqa xidmət kimi formalaşırsa, onda aydın olur ki, dövlətin xarici təhsilə dəstəyi dövlətin və xalqın bilavasitə öz maraqlarına xidmət edir. Beləliklə, istedadlı gənclərin xaricdə təhsilinə dövlət yardımı bir tərəfdən stimul təqdim etməklə gənclərdə bu və ya başqa reaksiya yaradır, digər tərəfdən xaricdə təhsil almaq istəyən həmin reaksiya təhsil almaq istəyən gənclərdə mövcud olan meyllərə əsaslanır".

Bu səbəbdən, o gənclərin xaricdə təhsili dövlətə xidmət edir ki, onlar dövlətə və xalqa xidmət ruhunda tərbiyə olunsunlar. Bu da dövlət yardımı ilə xaricdə təsilə seçici yanaşmağı tələb edir. Dövlət hesabına xaricdə təhsil alan gənclərin təhsili başa vurduqdan sonra dovlətin və cəmiyyətin inkişafında iştirak etməməsi seçimin yanlış olduğunu göstərir.

Azərbaycan dövlətçilik tarixində xaricdə təhsilin dövlət səviyyəsində təşkilində Qacarlar İmperiyasının vəliəhd şahzadəsi, Azərbaycan tarixində birinci Böyük Şah Abbasdan sonra mütərəqqi rol oynamış Abbas Mirzə önəmli qərarlar vermişdir. Qacarlar tarixinin araşdırıcılarından və bu sülalə ilə yaxınlığı olan Əminə Pakrəvan "Abbas Mirzə və Azərbaycan" adlı monoqrafiyasında yazır ki, Abbas Mirzə Təbriz əyanlarının yüzlərlə ovladını təhsil almaq üçün Avropanın müxtəlif təhsil mərkəzlərinə göndərmişdir. Onlar tibb, texnika, texnologiya, xüsusən hərbi sənaye sahəsində mütəxəssis kimi formalaşaraq, ölkəyə qayıdıb, Abbas Mirzənin həyata keçirməyə cəhd etdiyi hərbi, sosial, iqtisadi islahatlarda iştirak etmişlər.

Azərbaycan parçalandıqdan sonra Çar Rusiyasının tərkibinə daxil edilmiş Şimali Azərbaycanda XIX əsrin axırlarından başlayaraq, xarici təhsil Azərbaycan milyonçuları tərəfindən ictimai əsaslarla həyata keçirilməyə başlamışdır. Təkcə böyük xeyriyyəçi və maarifsevər Zeybnalabdin Tağıyev yüzlərlə gəncin Avropa və Rusiyanın qabaqcıl universitetlərində təhsil almalarını maliyyələşdirmişdir.

1918-ci il may ayının 28-də Demokratik Cümhuriyyət elan edildikdən sonra atılan ilk addımlardan biri xaricdə ali təhsil almaq üçün 100 nəfərdən artıq istedadlı gəncin seçilib göndərilməsi olmuşdur. Azərbaycan yenidən Rusiya tərəfindən işğal olunduğundan, bu tələbələrin böyük əksəriyyəti ya təhsilini yarımcıq qoymuş, ya da sonradan Vətənə qayıtmayıb, təhsil aldıqları ölkələrdə qalmışdır.

Sovet hakimiyyəti illərində dünyadan özünütəcrid yolu tutmuş sovet insanlarının xarici ölkələrdə təhsil almaq imkanı demək olar ki, aradan qaldırılmışdır. 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının rəhbərliyinə keçən Heydər Əliyev ilk növbədə Azərbaycan gənclərinin respublikadan kənarda - SSRİ-nin müxtəlif şəhərlərində təhsil almaları üçün nəhəng dövlət siyasəti həyata keçirmiş və nəticədə on mninlərlə Azərbaycan gənci yüksək ixtisaslara yiyələnmişdir. Sonradan onların çoxu Azərbaycana qayıdaraq, ölkəmizdə elm, texnika və texnologiyanın inkişafında mühüm rol almışlar. H.Əliyev Moskvaya işləməyə getdikdən sonra bu proses sürətlə zəifləmiş və son illərdə demək olar ki, təşkil olunmamışdır...

*(Ardı var)*